QARA QARAYEV İRSİNİN QORUNMASI

Görkəmli sənət adamlarının yaradıcılıqlarının, əsərlərinin, əlyazmalarının, məktublarının qorunması hər bir dövlətin mədəniyyət siyasətində əsas yerlərdən birini tutur. Dünyanın bir çox muzeylərində, həmçinin ev muzeylərində, mədəniyyət mərkəzlərində, kitabxanalarında bu qəbildən olan böyük şəxsiyyətlərin əsərlərinin külliyyatının, əlyazmalarının, məktublarının və s. nüsxələri ilə tanış olmaq mümkündür. Unutmaq olmaz ki, bu mədəniyyət müəssisələrində, eyni zamanda sənətkarın yaradıcılığı ilə əlaqədar ciddi tədqiqatlar aparılır, əsərlərinin yeni nəşri, müasir və müstəqil bədii həyatı haqqında məlumatlar verilir, onların geniş auditoriya arasında təbliğ olunması yolunda böyük işlər görülür.

Bu baxımdan Almaniyanın Bonn şəhərindəki İ.S.Bach muzeyini, Avstriyanın Zalsburq şəhərindəki V.A.Motsart muzeyini, Moskva vilayətinin Klin şəhərindəki P.İ.Çaykovski adına ev muzeyini, Bakıdakı Üzeyir Hacıbəyli adına ev muzeyini fikrimizə nümunə göstəririk. Lakin sənətkarın yaradıcılıq mirasını yalnız bu tədbirlərlə məhdudlaşdırmaq olmaz. Belə ki, sənət əsərlərinin daim repertuarda olması, səhnələşdirilməsi, səsləndirilməsi, rəsm sərgilərində nümayiş etdirilməsi, geniş təbliği, insanların estetik mədəniyyətlərinin formalaşmasında yaxından iştirakı da olduqca mühüm rol oynayır. Heç şübhəsiz, burada əlaqədar təşkilatlar, muzey işçiləri, tədqiqatçılar, sənətşünaslar, mütəxəssislərlə birlikdə, sənətkarın yaxınları, qələm dostları, xüsusilə də övladlarının da üzərinə mühüm işlər düşür. Onların köməkliyi ilə sənətkarın həyat və yaradıcılığında qaranlıq olan bir çox məsələlər aydınlanır. Bu mənada Qara Qarayevi xoşbəxt sənətkar hesab etmək olar. Bəstəkarın yaradıcılığının dövlətimiz, şəxsən ulu öndər Heydər Əliyev, həmçinin respublika Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək dəyərləndirildiyi bizə məlumdur. Vaxtilə Heydər Əliyev çıxışlarının birində Qara Qarayevin şəxsiyyəti və yaradıcılıq yolu haqqında bu sözləri söyləmişdir:

"Qara Qarayev bizə özünün bədii dəyərinə görə valehedici irs qoyub getmişdir. Qara Qarayevin adı mütəfəkkir alim, görkəmli publisist kimi Azərbaycan elminin tarixinə yazılmışdır. Bəstəkar, pedaqoq, alim, rəhbər, ictimai xadim olan Qara Qarayev həmişə və hər işdə alovlu musiqiçi tribundur. Qara Qarayevin adı, onun musiqisi ölməzdir. İllər, on illər keçəcək, bizim kimi yeni-yeni nəsillər də gözəlliyi Qara Qarayevin əsərləri vasitəsilə dərk edəcəklər". Heç şübhəsiz, bu sözlər bir daha görkəmli bəstəkarımızın çoxnövlü yaradıcılığına diqqət göstərməklə yanaşı, onun yaradıcılığını yalnız əsərlərinin ifa edilməsi ilə məhdudlaşdırmır. Bununla o, bir daha xatırladır ki, bəstəkarın yaradıclığının müasir dövrdə dərindən öyrənilməsinin, gənclərin musiqi-estetik tərbiyəsinə təsiri böyükdür, bu səbəbdən də sənətkarın irsinin təbliği, tədrisi son dərəcə önəmlidir. Bu baxımdan düşünürəm ki, Qara Qarayevin zəngin irsinin mühafizəsi, professional bəstəkarlıq və etno muzikoloji baxımdan araşdırılması da önəmlidir.

Eyni zamanda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qara Qarayev yaradıcılığının bütün dünyada təbliği, yayılması, bəstəkarın yaradıcılığına həsr edilmiş festivalların, beynəlxalq müsabiqələrin, konfransların, simpoziumların keçirilməsi yolundaki təşəbbüslərini də unutmaq olmaz.

Bunula belə, etiraf etmək lazımdır ki, Qara Qarayev yaradıcılığının onun ölümündən sonra ən ardıcıl, ən fəal və məntiqi olaraq təbliği sahəsində fəaliyyət göstərən bəstəkarın övladları, qızı Züleyxa xanım və oğlu tanınmış bəstəkar Fərəc Qarayevdir.

Məlumdur ki, hər bir böyük sənətkarın əsərlərinin mühafizə olunması məsələsini heç də yalnız muzeydəki maddi və mənəvi mədəniyyət örnəklərinin mühafizəsi kimi başa düşmək doğru olmazdı. Belə ki, sənətkarın ölümündən sonra da onun əsərləri yaşamını fəal surətdə davam etdirir, bir şəhərdən digərinə, bir ölkədən başqasına keçərək insanların mənəvi həyatına daxil olur, onların düşüncə tərzinə, estetik mədəniyyətinin formalaşmasına, həmçinin, millətlərarası sosial-mədəni əlaqələrin inkişafına özünün böyük təsirini göstərmiş olur. Həqiqətən milli-bəşəri dəyəri olan musiqi əsərlərinin tezliklə ölkə çərçivəsini aşıb digər ölkələrdə, qitələrdə belə səslənməsi, rəğbətlə qarşılanmasını söyləmək mümkündür. Təbii ki, bu proses bəstəkarın ölümündən sonra da başlı-başına buraxılmamalı, yəni belə əsərlərin orijinal tərəvətdə, ən yüksək səviyyəli ifaçılar tərəfindən dünya musiqisevərlərinə çatdırılması da çox önəmlidir. Əks halda bu, bəstəkarın əsərlərinin düzgün anlaşılmamasına, onun texniki-estetik və ideya-məzmun baxımından sönük, maraqsız bir şəkildə qəbul olunmasına səbəb ola bilir. Belə bir vəziyyəti gözəl hiss edən prof. Fərəc müəllim bəlkə də yaradıcılıq fəaliyyətinin ən mühüm sahələrindən birini atası, dünya şöhrətli bəstəkar Qara Qarayevin əsərlərinin orijinala uyğun və yüksək səviyyədə dinləyicilərə çatdırılmasını son dərəcə vacib sayırdı. Məlumdur ki, bəstəkarın əsərlərinin şöhrətini artıran, onların təbliği işində müəyyən rol oynaya bilən faktorlardan biri də bu əsərlərin müxtəlif orkestrlər, musiqi kollektivləri, musiqi ansamblları, ayrı-ayrı musiqi alətləri, hətta xalq çalğı alətləri tərəfindən ifa edilməsidir.

Əlbəttə, bunlar təqdirəlayiq haldır. Lakin burada yenə də keyfiyyət, ifa səviyyəsi və məharəti, orijinala uyğun olub-olmaması məsələsi ortaya çıxa bilir. Bəstəkar Fərəc Qarayevin yazılarından və müxtəlif qəzetlərin müxbirlərinə verdiyi müsahibələrindən onun bu məsələlərə nə qədər böyük önəm verdiyinin şahidi oluruq. Məsələn, onun bir müraciətində Qara Qarayev adına kamera orkestrinin fəaliyyətindən bəhs olunur. Bəstəkar bu yazısında əslində Qara Qarayevin adını daşıyan orkestrin böyük bəstəkarın yaradıcılığına bir qədər sönük münasibətindən söz açır, bəstəkarın beş il ərzində onun bu orkestr üçün xüsusi olaraq yazdığı əsərlərinə müraciət edilməməsinin səbəbini sorur, əsərlərinin sadələşdirilmiş, həm də professionallıq baxımından zəif şəkildə aranjiman olunmasına qarşı çıxır. Ümumiyyətlə, Qara Qarayevin texniki-estetik və ideya-məzmun baxımından mürəkkəb əsərlərinin ifası üçün orkestr ifaçılarının hələ hazır olmadıqlarını dilə gətirir. Fərəc müəllim eyni zamanda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Simfonik Orkestrinin fəaliyyəti ilə bağlı maraqlı fikirlər söyləyir, orkestrin instrumentariyasının köhnəlməsi, buradaki ifaçıların əməkhaqqının aşağı olmasından da bəhs edir.

Bu yazıda Fərəc müəllim daha bir mühüm məsələyə toxunur və qeyd edir ki, ümumiyyətlə hər hansı bir əsəri digər orkestr və ya ansambl üçün aranjiman edərkən mütləq əsərin orijinalına müraciət olunması zəruridir. Əsərin orijinal varlığına yox, artıq müxtəlif alətlər və ya musiqi ansamblları üçün edilmiş aranjimana müraciət edilməsi isə yaxşı nəticə verə bilməz və əslində əsərin bədii dəyərini aşağı salmış olar. Bu prinsipi əsas tutan Fərəc müəllim Qara Qarayevin "Don Kixot" və "Leyli və Məcnun" əsərlərindən parçalara müraciət edir və onların kamera orkestri üçün aranjiman olunmasını tənqid edir, həmin əsərlərin səhnədə səsləndirilməsini, xüsusilə də xarici ölkələrdə nümayiş etdirilməsini bəstəkarın yaradıcılığına olan sayqısızlıq kimi qiymətləndirir.

Fərəc müəllim Qara Qarayevin mürəkkəb bir musiqi dilinə sahib "Üçüncü Simfoniya"sının, həmçinin "Klassik süita"sı və digər bir çox əsərlərinin də kamera orkestri tərəfindən ifa olunmamasının səbəblərinə diqqət çəkir. Bu əsərlərin R.Barşay, R.Abdullayev, D.Sitkovetski, N.Rzayev və başqaları kimi bir çox tanınmış dirijorların məmnuniyyətlə öz repertuarlarına aldıqları halda, onların kamera orkestri tərəfindən repertuarlarına salınmamasından narazılığını bildirir. Bunun digər bir səbəbini müəllif yenə də orkestr ifaçılarının bu yükü qaldıra biləcək texniki səviyyələrinin hələlik buna imkan verməməsində görür.

Fərəc Qarayev kamera orkestrinin bədii rəhbərinə Qara Qarayev əsərlərinin bu orkestr üçün təmənnasız olaraq aranjiman olunmasına hər zaman hazır olduğunu da bildirmişdir. Nəzərə çatdırmaq lazımdır ki, Qara Qarayevin istedadlı tələbələrindən olan Fərəc müəllim həqiqətən də atasının, bu böyük bəstəkarın yaradıcılığını, onun musiqi dilini demək olar ki, hər kəsdən daha dərin və hərtərəfli dərk edir. Bu, heç də təsadüfi deyil. Fərəc müəllimin hələ atasının sağlığından yaradıcılıq fəaliyyətinə başlaması və bacarıqlı olması, bəstəkarın "Sonatina"sını simli orkestr üçün oranje (işləmiş) etmiş (1978-ci ildə prof. R.Seyid-zadənin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyasının) tələbələri tərəfindən bacarıqla ifa olunmuşdur. O, eyni zamanda atası ilə birlikdə "Qoyya" filminin musiqisi üzərində çalışdığı, 1998-ci ildə "İkinci Simli Kvartet"ini aranjiman etməsi bəstəkarın "Skripka üçün Konsert"inin redaktorluğunu gerçəkləşdirməsi, Aleksandr Skryabinin "Onuncu Sonata"sının kamera ansamblı üçün işləməsi və s. bu kimi işlər onun bir daha bu sahədə olduqca kamilləşdiyini sübut etmişdir. Xatırlatmaq lazımdır ki, Fərəc Qarayevin məhz bu keyfiyyətini nəzərə alan Vyana Universal Editon (müəlliflik hüququnu qoruyan nəşriyyat) nəşriyyatı Alan Bergin

mürəkkəb musiqi dilinə malik "Skripka üçün Konsert"inin partiturasının kamera variantının yazılmasını da məhz ona sifariş vermişdir. Ümumiyyətlə, Fərəc Qarayevin bu fəaliyyətilə tanışlıq bir daha onun müasir musiqi bədii cərəyanları və ümumiyyətlə, Qərb musiqi mühiti ilə yaxından tanışlığını üzə çıxarmışdır. Məsələn, müsahibələrinin birində o, vaxtilə tanınmış bəstəkarların belə, əsərlərinin müxtəlif musiqi kollektivləri və ifaçılar üçün işlənməsi kimi hadisələrin olmasını xatırladır, yenə də vaxtilə (1918-1921) Vyanada "Fərdi İfaçıların Musiqi Cəmiyyəti" haqqında maraqlı məlumatlar verir. Qeyd edir ki, maddi sıxıntılar üzündən Şönberq və məsləkdaşları kiçikhəcmli kollektivləri dəvət edir və bəstəkarların əsərlərini yenidən xüsusi olaraq bu kollektivlər üçün işləməli olurdular. Fərəc müəllim hətta Bruknerin "Yeddinci" və Malerin "Dördüncü" simfoniyalarının belə kamera variantlarının olduğunu qeyd edir, hətta bu gün Dmitri Şostakoviçin sekstet üçün aranjiman olunmuş "On beşinci simfoniya"sını misal çəkir.

(davamı növbəti saylarımızda)

Babək QURBANOV.